

# Məhəbbət NİZAM

## VƏTƏN

*«Zora təslim olan torpaq*
*Qaytarılmaz söz gücünə».*
**Bəxtiyar Vahabzadə**

Biri gəlir, beşi gedir,
Heç bilmirsən kim nə edir?
Hər yetişən səni didir,
Vətən, yaman ilişibsən
Düşmənlərin ülgücünə.
«Zora təslim olan torpaq
Qaytarılmaz söz gücünə».

Vətən, başın altda balış,
İstər dincəl, istər çalış.
Bu təslimlə istər barış,
Yoxundusa başda bayraq,
Yoxundusa döşdə yaraq,
«Zora təslim olan torpaq
Qaytarılmaz söz gücünə».

Vətən, Vətən deyənlərin
Var-yoxunu yeyənlərin.
Bax, Maltadan, Panamadan,
Ya Dubaydan gəlir səsi,
Ya da Vicrin adasından
Ucalır «Vətən» nəğməsi.

Hara baxsaq verir səndən,
Təzə xəbər, təzə soraq.
Gecə-gündüz söz yazsaq da
Sətir-sətir, varaq-varaq,
Gör, Bəxtiyar nə deyirdi:
«Zora təslim olan torpaq
Qaytarılmaz söz gücünə».

İstər at sür, istər dəvə,
İstər «Ralli» yarışı qur.
İstər çul tik, istər gəvə,
İstər yüz yol sök, tik, uçur.
Yüz muzey aç, yüz də meydan,
Yüz körpü sal, hamsı hədyan.
Gündə yüz yol «Atəşkəs»i,
Pozursa da qarı düşmən,
Gündən-günə bu millətdə
Ölürsə də yurda maraq,
«Zora təslim olan torpaq
Qaytarılmaz söz gücünə».

Qaytarılmaz! Biz görmüşük,
İrəvanı, Zəngəzuru,
Təbriz, Dərbənd, Borçalını.
Biz görmüşük üstümüzə
Hər gün gülüb əl çalanı.
Biz görmüşük yalan yerə
Hey döşünə döyünləri,
Hey özünü öyənləri,
Bu vətənin haqq işini
Haqsızlıqla əyənləri.

Vətən, dərdin-azarın çox,
Sinən üstə lələnənən,
Qanlı şəhid məzarın çox.
Yüz illərdi ürəyində
Nakam arzun, murazın çox.
Düz iyirmi yeddi ildi
Qan ağlayır «Qanlı Yanvar».
Düz iyirmi beş ildi ki,
Xocalıdan nalə qalxar.
Düz iyirmi altı ildi
Qarakənddə kabuslar var.
Vətən, dərdin tükənməzdi,
Dərd çəkənin olsa nə qəm,
Öz dərdini çəkir hərə.
Kimə nə ki, yad əlində
İnildəyir yüz dağ, dərə.
Kimə nə ki, Qarabağda
Düşmən təzə büsat qurur.
Təzə, gözəl həyat qurur.
Dağ neyləsin, daş neyləsin,
Gözdən axan yaş neyləsin.
Ürəklərdən daş asılıb,
Var hayında - baş neyləsin?!
Qudurğanlar gecə-gündüz
Var gəzirsə əldə çıraq,
«Zora təslim olan torpaq
Qaytarılmaz söz gücünə».

Qaytarılmaz! Bilin bunu,
Lap «Tolerant» olsaq yenə,
Lap «çox rahat» olsaq yenə.

Ermeniyə, rusa, farsa,
Yüz dəfə «mat» olsaq yenə.
Qaytarılmaz! Qaytarılmaz!
Bu sözləri qəlbinə yaz!
Vahabzadə deyib getdi,
Hey içini yeyib getdi.
Azadlığı olmayanlar
Azad günə çıxa bilməz,
Düşməni də yıxa bilməz!
Düşməni də yıxa bilməz!

Qalx ayağa, oğul, qalx, qalx!
Güvən, güvən öz gücünə,
«Zora təslim olan torpaq,
Qaytarılmaz söz gücünə».

**29.12.2017**

## DANIŞMA

*Bu ili «Nəsimi ili» elan ediblər*

Şair qardaş, dur, sənindi söz, danış!
Yum gözünü, qoy görməsin göz, danış!
Gizlə Haqqı, sal bağrına köz, danış!
Nəsimini soyanlardan danışma.

İllər ötüb Nəsimidən bu yana,
Yenə yer yox haqqı sevib duyana.
Əl çal, alçal səni ağlar qoyana,
Nəsimini soyanlardan danışma.

Nəsimini soyduranlar baş olub,
«Haqq!» gəzənə əllərində daş olub.
Doğru sözlər bir de, kimə xoş olub,
Nəsimini soyanlardan danışma.

Zahidə bax, gizləsə də barmağın,
Yaxşı yerə sancıbdı öz qarmağın.
Elə çalar, olmaz bir də durmağın,
Nəsimini soyanlardan danışma.

Kişilikdən əsər yazır çoxusu,
Kişimi var kişi sözün oxusun.
Hər kitabda yağlı yalın qoxusu,
Nəsimini soyanlardan danışma.

Ay Məhəbbət, çoxdu dərdin, bilirəm,
Sən də haqqa könül verdin, bilirəm.
Yoxa çıxıb neçə mərdin, bilirəm,
Nəsimini soyanlardan danışma.

**30 mart 2019-cu il**

* * *

Dəm qazından dəmlənib, millət nədən dəm vurur,
Haqq gəzənə gəm qoşub, ağzına da gəm vurur.
Hardasan ay Sabirim, Pünhanı da götür gəl,
Görün, bir üstümüzdə kim oxuyur, kim durur?!

Çalağan bəslədik, ilan böyütdük,
Yaltaq sığalladıq, yalan böyütdük.
Alçağa, əyriyə dil verə-verə
Etdik "filan oğlu, filan" böyütdük.

Bu gördüyüm, eşitdiyim, "Acı həqiqət"di, Baba!
Yalançılıq yalançıya yoldu, təriqətdi, Baba!
Bax, Qurana əl basanım başıma nə oyun açır,
De, bu necə müsəlmanlıq, necə şəriətdi, Baba?!

Gədə-güdə taxta çıxdı, ay Baba!
Sözü-gapı saxta çıxdı, ay Baba!
Gecə-gündüz öyündülər, öydülər,
Qılıncları taxta çıxdı, ay Baba!

Xoş halına, nə dərdin var, nə qəmin,
Batmayıb ki, nə qayığın, nə gəmin.
Bir qarındı, orda-burda hərləyib,
Otarırsan sağlığına dədənin.

Boz tikanı yüz sığalla, yüz oxşa,
Dörd yanına lalə, nərgiz düz, oxşa.
Dalayacaq əllərini, toxunsan,
Nə fərqi var, əyri oxşa, düz oxşa.

Dərdə salıb sındırırlar sınmazı,
Tabın alıb, yandırırlar yanmazı.
Haqq zorundu, zor gücünə sıxcayıb,
Əzəl-axır qandırırlar "qanmazı".

Ağ günümüz ağ yalandı, bürünüb yallı gedirik,
Çırtıq çalıb səhər, axşam, sürünüb hallı gedirik.
Öysələr də, döysələr də, lap mədəni söysələr də,
"Güllər açan kürü" kimi kürünüb ballı gedirik.

Çaqqal-çuqqal çoxalıb, yalağa yala gəlir,
Kaftar-küstülər dönüb, yeməyə dala gəlir.
Acgödənlər sürüsü sürüdükcə milləti,
Vətənin də başına dərd gəlir, bəla gəlir.

Yamana yol göstərir, yaxşıya açmır qapı,
Öz zoğunu doğradır özgəyə balta sapı.
Dinəndə toy-büsatdan, xoş həyatdan danışır
Oyundan, oynamaqdan tükənmir sözü-gapı.

Şər oğlu şər düşünər, şərə xidmət eyləyər,
Cah-calala baş əyər, zərə xidmət eyləyər.
Hərdən yeri gələndə ağ kəfənə bürünüb,
Dolanar məscidləri, pirə xidmət eyləyər.

"Dolu" ayaqdadı, "boş" başda indi,
Başlıdan öndədi boşbaş da indi.
Pozub insanlığı bazar dünyası,
Adamlıq ölçülür daş-qaşla indi.

Yazım-yaddaş vərəqi, yazımı yadda saxla,
Unutma, Qorqud çalıb, sazımı yadda saxla.
"Yaddan yoldaş olunca qardaş əlindən gedər"-
Atalardan yadigar sözümü yadda saxla.

Kəsilmir, kəsilmir qanı dünyanın,
Qurtarmır bəladan canı dünyanın.
Haqqı tapdalayır "haqq","haqq" deyənlər,
Bəs haqsevənləri hanı dünyanın?!

Satqını, yaltağı başa çəkirlər,
Haqqı gəzənləri daşa çəkirlər.
Haramı halaldan verib qabağa,
Qurunun işini yaşa çəkirlər.

Sənindi dövran bala, vur,çomağın oynasın,
Şappıldat sağa-sola, dur, çomağın oynasın.
Kimdi keçən önünə, döy dinənin gönünə,
Tərpənənin gözünü qır, çomağın oynasın.

Yavaş-yavaş tumarlayıb oyurlar,
Yavaş-yavaş hamarlayıb oyurlar.
Yavaş-yavaş beynimizə əl salıb,
Yavaş-yavaş damarlayıb oyurlar.

Düz danışma, düzünü əkər, şum eyləyərlər,
Sümüyünü doğrayar, çəkər, mum eyləyərlər.
Yandırarlar atəşə inan, cismi-canını,
Külünü qumsaqlığa tökər, qum eyləyərlər.

Yalanımız başdadı, yalan şöhrət-şanımız,
Yalanla dövr eyləyir damarlarda qanımız.
Biz yalandan doğulub,yaşayırıq yalanla,
Yalansız bircə anda ölüb gedər canımız.

Az yeyəni döyürlər, çox yeyənə dəyən,kim?
Çox çalıb, çox çapana bircə kəlmə deyən,kim?
Talan üstə qurulub bu qurğunun binası,
Gözlü kordumu, görür, qazanan kim, yeyən kim?!

"Oxşama" yazmadım ki, oxşayalar başımı,
Öpüb əzizləyər torpağımı, daşımı.
"Oxşama" yazmadım ki,öyələr, öydürələr,
Bükələr gül-çiçəyə çınqılımı, daşımı.

Xain başa keçəli baş əyəni çoxaldı,
Qabağında göz yumub, qaş əyəni çoxaldı.
Arvad-uşaq bir yana, nəslini də çul kimi
Bakıdan Dubayacan döşəyəni çoxaldı.

Kor Sadıq başa keçdi, "Ağeyi Sadıq" oldu,
Yazdılar, oxutdular bir ildə natiq oldu.
Yedəkdə yaşayırdı, süründü yedəkdə də,
Ölüncə kor gəzdirən yedəyə sadiq oldu.

Oğullar şəhid oldu, qızlar əsir, oynarıq,
Gözümüzə görünməz yetim-yesir, oynarıq.
Qarabağdan köçənlər qara bağnan "köçürlər"
Qarabağa köçməyə kim tələsir, qoymarıq.

Yalağa yalmananlar yalana arxa durdu,
Qəpik-quruş xətrinə talana arxa durdu.
Mənliyini itirib, ar-namusu satanlar,
Millətini pis günə salana arxa durdu.

Layla çalın millətə, layla çalın, durmasın,
Duranda da oynadın, kimliyini sormasın.
Ac qalanı ağlasa,cibinə"bir şey"qoyun,
Kefinizi qaçırdıb, başınızı yormasın.

Demə ki, kordur gözüm, qurulanı görmürəm,
Haqq gəzəndə aşkara vurulanı görmürəm.
Hər tində, hər dalanda güllü bağlar saldırıb,
Yalançı şan-şöhrətə sarılanı görmürəm.

Hər gün böyüyür Bakı, hər gün sevinirik biz,
Hər gün təzə yollara baxıb, öyünürük biz.
"Gün gələr, ermənilər qaytarar Qarabağı",
Nolub, yoxdu nəyimiz, niyə deyinirik biz?!

Məddah gəlir,əl çalın, yenə yumub gözünü,
Peyğəmbərdən açacaq təmtəraqlı sözünü.
Bir allahsız oğlunu qaldıraraq göylərə,
Kimliyini görk edib, tanıdacaq özünü.

Oyunbazlar oyunda, millət də öz toyunda,
Rüşvət bağı gül açır xalqın hoyhahoyunda.
Arxasına, önünə qoşa "natürmort" asıb,
Məmurlar "qiymət kəsir" hər şəkilin boyunda.

Hanı bu dünyada "mənəm" deyənlər?
Hanı qol zoruna haqqı əyənlər?
Hanı bu dünyanı qana qərq eib,
Yerə də, göyə də hökm eləyənlər?

Bölüşdürüb, "bizdən","sizdən" edirlər,
Düz deyəni qovub,düzdən edirlər.
"Yap"deyəndə yapmayanı təntidib,
Süründürüb, qoldan, dizdən edirlər.

Qaranı ağ eyləyib, ağa qaradır deyir,
Dünənki bütövünə bu gün paradır deyir.
Kef çəkib məst olduğu İsa bulağındakı
Şəklini göstərirəm,bura haradır deyir?!

Başda duranlara baş əyən gədə,
Baş əyib, var-halın daşıyan gədə,
Elə bil, yolunmuş hind xoruzudu,
Arvad kölgəsində yaşayan gədə.